# Zamanın tələbi, xalqın istəyi ilə yaranan siyasi qüvvə

*Yeni Azərbaycan Partiyası (YAP) ölkəmizin ağır, keşməkeşli günlərində, ciddi sınaqlara məruz qaldığı dövrdə ziyalılarımızın təşəbbüsü və fəal iştirakı ilə yaranmışdır. YAP-ın təsis edilməsi 1988-ci ildən başlayaraq ölkəmizdə cərəyan edən hadisələrin və mövcud ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi. Keçmiş Sovet rejiminin və Kommunist Partiyasının süqutundan sonra müstəqillik əldə etmiş respublikalardan biri kimi Azərbaycanda da müxtəlif siyasi partiyalar və digər qurumlar təşəkkül tapmağa başlamışdı.*

Respublikada siyasi qurumların formalaşması prosesi 1988-ci ildən başlanan xalq hərəkatı gedişində özünü büruzə vermiş və 1990-cı ilin əvvəllərində bir sıra təşkilatlar yaranmışdı. Lakin bu partiyalar ölkəni ağır iqtisadi, siyasi, mənəvi böhrandan qurtara bilmədi, əksinə, hakimiyyətdə olan və bir-birini əvəz edən siyasi qüvvələr respublikada vəziyyəti böhran həddinə çatdırdılar. Bu zaman Azərbaycanın taleyini düşünən insanlar yeni partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və bu məqsədlə ümummilli lider Heydər Əliyevin ətrafında birləşdilər. 91 nəfər Azərbaycan ziyalısının imzası ilə Naxçıvana, Heydər Əliyevə müraciət göndərildi. Azərbaycanın ən yeni tarixinə "91-lər"in müraciəti kimi daxil olmuş həmin sənəd bütün xalqın arzu və istəklərinin ifadəsi idi. Azərbaycanın görkəmli ziyalıları, tanınmış insanları və nüfuzlu şəxsiyyətlərinin imzaladıqları müraciətdə Heydər Əliyevdən yeni yaradılacaq siyasi partiyaya rəhbərlik etmək xahiş olunurdu. Ümummilli lider Heydər Əliyev o dövrdə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə sədrlik edirdi. Ulu öndər xalqın müraciətini qəbul etsə də, onun Bakıya gəlməsinə ozamankı hakimiyyətin manеələr yaratması səbəbindən 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana gedərək partiyanın təsis konfransını orada keçirməyə nail oldular. Azərbaycanın bütün regionlarından nümayəndələrin təmsil olunduğu konfrans 1992-ci il noyabrın 21-də Heydər Əliyevin sədrliyi ilə keçirildi. Təsis konfransı Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın Proqram və Nizamnaməsini qəbul etdi. Konfransda Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Partiyanın Siyasi Şurası, İdarə Heyəti və sədr müavinləri təyin edildi. Beləliklə, müstəqil Azərbaycan tarixində, xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası yarandı.

YAP Azərbaycan Respublikasının Konstitusiyası və qanunvericiliyi çərçivəsində özünün Nizamnaməsi və Proqramı əsasında fəaliyyət göstərən, öz sıralarında hüquqi dövlət, sabit və sosialyönümlü iqtisadiyyat, vətəndaş cəmiyyəti qurmaq ideyalarını qəbul edən vətəndaşları birləşdirən sağ mərkəzyönümlü siyasi partiyadır.

YAP-ın əsas vəzifələri dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firavan həyatının təmin edilməsidir. Müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, yaradıcı təkamül, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri YAP-ın qarşısında duran əsas vəzifələr olaraq mahiyyətcə Azərbaycanın siyasi gələcəyinin ideya bazasını şərtləndirdi. Yeni Azərbaycan Partiyası 1992-ci il dekabrın 18-də Ədliyyə Nazirliyində qeydiyyata alınmış və respublikamızın bütün bölgələrində qısa müddətdə rayon təşkilatları və özəkləri yaradılmışdır.

1993-cü il oktyabr ayının 3-də YAP-ın sədri Heydər Əliyevin ümumxalq səsverməsi yolu ilə prezident seçilməsi partiyanın həyatında yeni dövrün əsasını qoymuşdur. Partiyanın statusu yeni şəraitə uyğun olaraq dəyişmiş, ölkənin siyasi həyatında mövqeyi möhkəmlənmiş, kütləvi siyasi qüvvəyə çevrilmişdir. 1995-ci il noyabr ayının 12-də keçirilən parlament seçkilərində Milli Məclisə seçilən deputatların əksəriyyəti Yeni Azərbaycan Partiyasının üzvləri olduğundan YAP iqtidar partiyasına çevrilmiş, ona olan ümumxalq inamı bir daha təsdiq edilmişdir.

Partiyanın 1999-cu il dekabr ayının 20-21-də keçirilən I Qurultayı ümumilikdə Azərbaycan cəmiyyətinin həyatında mühüm rol oynamışdır. Qurultayda YAP-ın təsis konfransında qəbul olunmuş Proqram və Nizamnamə geniş şəkildə müzakirə edilmiş, müəyyən əlavə və dəyişikliklər həyata keçirilmişdir. YAP-ın strateji fəaliyyət istiqamətləri, Azərbaycanın dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, beynəlxalq münasibətlər sistemində respublikamızın layiqli yer tutması, ölkəmizdə dövlət quruculuğu yönündə başlıca məqsəd və vəzifələr müəyyənləşdirilmişdir.

Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının Sədri kimi şərəfli inkişaf yolu keçmiş və partiyanın daha da inkişaf etdirilməsinə, fəaliyyətinin təkmilləşdirilməsinə, beynəlxalq əlaqələrinin genişləndirilməsinə və müasirləşdirilməsinə ciddi əhəmiyyət verir. Partiya Azərbaycan ictimai-siyasi mühitinin mütəşəkkil, aparıcı qüvvəsi kimi çıxış edir. YAP daim yeniləşən, böyük ənənələrə malik, inkişaf edən siyasi partiya olaraq nüfuzunu və şöhrətini qoruyub saxlayır, getdikcə daha da artırır. Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasında aparılan geniş islahatlar ölkəmizdə partiya quruculuğu sahəsində əldə edilmiş mühüm müvəffəqiyyətdir. Müstəqil Azərbaycan Respublikasında bütün sahələr üzrə qazanılmış nailiyyətlərdə Yeni Azərbaycan Partiyasının böyük rolu və xidmətləri vardır. Birinci vitse-prezident Mehriban Əliyevanın partiya sədrinin birinci müavini kimi səmərəli fəaliyyəti respublikamızda bütün sahələr üzrə inkişafa, o cümlədən partiyanın siyasi fəaliyyətinin daha da genişləndirilməsinə xidmət edir və böyük töhfələr verir.

Yaradıcısı ümummilli lider olan Yeni Azərbaycan Partiyasının fəaliyyətində Heydər Əliyevin ideya və arzuları yaşayır. Qarabağ Zəfərindən sonra yaranmış yeni reallıqlar fonunda Yeni Azərbaycan Partiyasının sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə parlaq gələcəyə doğru daha inamla irəliləyir.

**Bayram SALMANOV,**
**"Respublika".**